# İlham Əliyev və Mehriban Əliyeva İsmayıllı və Şamaxıya səfər etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva noyabrın 1-də İsmayıllı rayonunda səfərdə olublar.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar. İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov rayonda görülən abadlıq-quruculuq işləri barədə dövlətimizin başçısına və birinci vitse-prezidentə məlumat verib. Bildirilib ki, bu il İsmayıllı şəhərinin Babək küçəsində ideya və üslub baxımından fərqli abadlıq işlərinə start verilib. Şəhərin Heydər Əliyev Parkına aparan, uzunluğu 400 metrə yaxın olan küçəsindəki abadlıq işləri rayonun gənc rəssamlarının birgə ideyaları əsasında həyata keçirilib. Küçədə yerləşən həyətyanı sahələrin hasarları müəyyən hündürlüyə çatdırılıb, divar üzlükləri təmir olunub, hasar damlarına keramik rəngli dəmir örtük vurulub. Ümumi görünüşə rəng qatmaq üçün darvazalar əlvan rənglərlə boyanıb, divarların fasadında dekorativ pəncərələr, skamyalar və gül dibçəkləri yerləşdirilib. Yolboyu divarlar küçə rəssamlıq sənət nümunələri ilə bəzədilib. Xüsusi memarlıq görünüşünü özündə ehtiva edən abadlıq işləri həm rayon sakinlərinin, həm də İsmayıllıya gələn qonaqların marağına səbəb olub.

Qeyd edək ki, Azərbaycanda biosmart avtobus dayanacağı ilk dəfə İsmayıllıda ötən il quraşdırılıb.

Onun əsas üstünlüyü pulsuz vayfayı, təhlükəsizlik kamerası, dezinfeksiya duşu, mini barı, enerji doldurma portu, USB girişinin olmasıdır. Dayanacaq Günəş enerjisi ilə işləyir və 8 oturacağı var. Bu il daha bir dayanacaq quraşdırılıb. Onu digərindən fərqləndirən cəhət sensor qapılarının və kondisionerinin olmasıdır.

Şəhərdə aparılan abadlıq-quruculuq işləri Heydər Əliyev Parkını da əhatə edib. Parkda attraksionlar, yeni trenajorlar quraşdırılıb.

Bununla yanaşı, yenidənqurma işləri çərçivəsində parkda yeni bəzək gül kolları və ağaclar əkilib, oturacaqlar yenilənib, işıq sistemi dəyişdirilib. Bu il şəhərin bir neçə küçəsinin asfaltlanması başa çatdırılıb.

## Prezident və birinci vitse-prezident Lahıcda məsciddə görülən işlərlə tanış olublar

**Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllıya səfər çərçivəsində Lahıc qəsəbəsində olublar.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı və birinci vitse-prezident qəsəbəni gəzib, sakinlərlə söhbət ediblər.

Sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar.

Qeyd edək ki, 2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində səfərdə olarkən sakinlər Bədöyün məscidinin təmiri ilə bağlı müraciət etmişdilər. Birinci vitse-prezident məsciddəki vəziyyətlə tanış olmuş və burada əsaslı təmir işlərinin aparılması barədə tapşırıq vermişdi. Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov məlumat verib ki, ötən müddət ərzində 1791-ci ildə inşa edilən Bədöyün məscidində və ətraf ərazilərdə Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa-təmir işləri aparılıb. Görülən işlər nəticəsində məscid orijinal formasına uyğun bərpa edilib. Məscidin minarəsi yenidən qurulub, dəstəmazxana inşa olunub. Məscidin qadınlar üçün nəzərdə tutulan hücrə və şəbəkələri əvvəlki görünüşünə qaytarılıb.

Qeyd edək ki, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihələr çərçivəsində bölgələrdəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

Onu da deyək ki, Lahıcda aparılan yenidənqurma işləri çərçivəsində qəsəbədə küçə döşəmələri, bulaqlar və eyvanların tarixi görünüşü də bərpa edilir, ərazidə oturacaqlar, tullantı qabları, gül dibçəkləri, tarixi quruluşlu işıq dirəkləri, küçə və abidə adları olan, eyni zamanda, turistik obyektləri göstərən lövhələr quraşdırılır.

Görülən işlər turistlərin Lahıca olan marağını daha da artırıb. Hər il bura gələn turistlərin sayında artım müşahidə edilir. Belə ki, 2019-cu ildə Lahıca 89 min nəfər turist gəlib. Onun da 37 minini xarici turistlər təşkil edib. Bu ilin sentyabrına qədər isə artıq Lahıcı 82 min turist ziyarət edib.

***

**Noyabrın 1-də İsmayıllı şəhər Natiq Behdiyev adına 6 saylı tam orta məktəbin yeni binası istifadəyə verilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Məlumat verilib ki, 1984-cü ildə inşa olunan bu məktəbin binası ötən müddətdə heç vaxt təmir olunmadığından istifadəyə yararsız vəziyyətə düşmüşdü. Ona görə də Heydər Əliyev Fondunun dəstəyi ilə məktəb üçün yeni binanın inşasına başlanıldı. 720 şagird yerlik yeni məktəb binası 5 korpusdan ibarətdir. Məktəbin nəzdində, həmçinin bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulan STEAM Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə şagirdlərə praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqi nümayiş olunacaq. Məktəbdə sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, idman zalları, açıq idman meydançası var. Otaqlar zəruri mebel və avadanlıqla, əyani vəsaitlərlə təchiz edilib.

***

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda da səfərdə olublar.**

**Səfər zamanı dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.**

# Bakıda TDƏŞ-ə üzv dövlətlərin Baş Prokurorları Şurasının ilk iclası keçirilib

**Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin Baş Prokurorları Şurasının ilk iclası keçirilib.**

Adalet.az-ın məlumatına görə, yüksək səviyyəli iclasa Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğız Respublikalarının baş prokurorları və digər nümayəndələr qatılıblar. Tədbirdə, həmçinin iştirakçı dövlətlərin və Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri iştirak ediblər.

Azərbaycanın Baş prokuroru Kamran Əliyev iclası açaraq böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla dostluq və qardaşlıq təməlləri əsasında yaradılacaq Şuranın regional təhlükəsizlik, sülhə və sabitliyə daha təhlükəli təhdidlər üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib. Bundan sonra, Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin iclas iştirakçılarına salamlarını və Şuranın yaradılması ilə bağlı təbriklərini çatdırıb. Daha sonra Türkiyə Prezidenti Rəcəb



Tayyib Ərdoğanın iclas iştirakçılarına ünvanlanmış videomüraciəti nümayiş olunub.

İclasda çıxış edən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Baş Katibinin müavini Mirvoxid Azimov türkdilli ölkələr arasında əməkdaşlığın inkişafında, xüsusən cinayətkarlığa və terrorçuluğa qarşı mübarizədə təsis ediləcək Şuranın mühüm əhəmiyyətə malik olacağını vurğulayıb.

Tədbirə qonaq qismində dəvət olunmuş Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti Çol-Kyu Hvan çıxış edərək qlobal, o cümlədən regional təhdidlərə qarşı mübarizədə birgə platformaların önəminə diqqət çəkərək Şura üzvlərinin əldə edilmiş təcrübədən və məlumat mübadiləsindən fəal faydalanmaq imkanına malik olacaqlarını bildirib.

**Açılış çıxışlarından sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin Baş Prokurorları Şurasının Əsasnaməsinin imzalanması mərasimi baş tutub.**

# Makron Morrisonu yalançılıqda ittiham edir

**G20 liderlərinin Romada keçirilən sammiti rəsmi hissəsində qəbul olunan qərar və bəyanatlardan daha çox kuluarlarda baş verən hadisələrlə yadda qalıb. Son vaxtlar Fransayla Avstraliya arasında yaranmış və diplomatik qalmaqal səviyyəsinə çatmış gərginlik burda da davam eləyib.**

"Adalet.az" xarici mətbuata istinadən xəbər verir ki, Fransa prezidenti Makron Avstraliyalı jurnalistin ona ünvanladığı "Siz elə hesab edirsiniz ki, Morrison sizi aldadıb, sizə yalan danışıb?" sualına çox kəskin reaksiya verib:



"Mən elə hesab etmirəm, mən bunu bilirəm".

Daha sonra sözünə davam eləyən prezident deyib: "Mən sizin ölkəyə böyük ehtiramla yanaşıram, xalqınıza böyük hörmət və dostluq hissləriylə yanaşıram. Mən sadəcə onu deyirəm ki, əgər bizim ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan münasibətlər hökm sürürsə, siz düzgün danışmalı, özünüzü adekvat aparmalısınız".

Sammitdə Fransayla münasibətləri tənzimləmək üçün Fransalı həmkarıyla bir neçə qısa görüş keçirmiş Morrison isə Makronun bu ittihamlarını qəbul etməyib və deyib ki, Fransa prezidenti bilməliydi ki, onların dizel yanacağıyla işləyən sualtı qayıqlar bizim tələbatımıza cavab vermirdi və maraqlarımıza uyğun deyildi".

**Xatırladaq ki, iki ölkə arasında münasibətlər Avstraliyanın Fransadan 90 milyard dollarlıq müqaviləni ləğv etməsindən sonra pisləşib. Bunun əvəzinə Avstraliya ABŞ-dan atom sualtı qayıqları almaq barədə müqavilə bağlayıb.**

**"Adalet.az"**

# Zəfər salnaməsi



*Fərid Ramazanov*
*Şəki penitensiar müəssisəsinin Mühasibat şöbəsinin böyük inspektoru, ədliyyə kapitanı*

**Artıq Şanlı Ordumuz 44 günlük əks-hücum əməliyyatlarını uğurla başa vurdu, Vətən müharibəsi Azərbaycan xalqının böyük zəfəri ilə bitmiş oldu. Zəfər əldə olunmasına mənəvi məna verən isə 30 ilə yaxın işğal altında olan torpaqlarımızı, xüsusi strateji və siyasi əhəmiyyət daşıyan Şuşa şəhərinin döyüşlə azad edilməsi oldu. Beləliklə, Azərbaycan son 2 əsrlik tarixində ilk dəfə olaraq müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə ehtiramında daha da möhkəmləndirdi.**

Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı, bu müharibə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbr göstərən xalqımız nəhayət qələbəyə nail oldu. Noyabrın 10-u ölkəmiz üçün tarixi bir gün oldu. Müzəffər Azərbaycan Ordusunun döyüşlərdə əldə etdiyi zəfər Ermənistanı masa arxasında oturmağa məcbur etdi. Üç ölkə başçıları (Azərbaycan, Rusiya və Ermənistan) birgə bəyanat qəbul etdilər. Bu bəyanat Ermənistanın məğlubiyyətinin açıq etirafı olaraq yaddaşlara həkk olundu. Əminliklə deyə bilərik ki, imzalanmış bəyanat bizim şanlı qələbəmizdir. Bu qələbə düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonlarını siyasi yolla qaytarsın. Bununla da, Azərbaycan ərazisi bütövlüyünü bərpa etmiş oldu. Eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi reallaşmış oldu.

***10 noyabr bəyanatı mahiyyət etibarı ilə Ermənistanın kapitulyasiyasıdır. Tərəflərin razılığına əsasən Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir. Bununla da, 30 ildən sonra Azərbaycan qərb rayonları ilə Naxçıvanın quru əlaqəsi təmin edilərək, vətəndaşlarımız tarixi torpaqlarından keçməklə Naxçıvana gedə biləcəklər. Bu bəyanatdan sonra regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı.***

Eyni zamnda son illər ölkəmizdə aparılan inkişaf siyasəti, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu quruculuğu, təbii ki, bu qələbəmizi şərtləndiridi. Bu qələbədən sonra artıq Qarabağımıza heç bir status verilmir. Əvvəllər olduğu kimi "Dağlıq Qarabağ Muxtar vilayəti" adlı ərazi vahidi yoxdur. Bütöv bir Qarabağ var ki, o da digər rayonlarımız kimi Azərbaycanın səlahiyyətindədir.

***Artıq Dövlət Sərhəd Xidməti Azərbaycanın bütün ərazilərində ümumi uzunluğu 3360 km olan bütün su və quru sərhədlərində vətənimizin keşiyini çəkirlər. Qısa müddət ərzində Azərbaycan dövləti işğaldan azad olunmuş bölgələrimizin inkişafı istiqamətində kifayət qədər nəhəng layihələrin icrasına başlayacaq, kommunikasıya imkanlarını daha da genişləndirəcəkdir.***

Vətən müharibəsi tarixi müharibədir. Müharibənin ilk günlərindən Ədliyyə Nazirliyinin əməkdaşları və onların ailə üzvləri, habelə ədliyyə könüllüləri yüksək vətənpərvərlik hissi ilə cəbhəyə yollanaraq döyüşlərdə iştirak ediblər. Hərbi əməliyyatlarda mərdlik və rəşadət göstərmiş Nazirliyin Aparatın bir əməkdaşı I dərəcəli ədliyyə qulluqçusu Ruhin Müzəffər oğlu Xəlilov 21 oktyabr 2020-ci ildə Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Vətən müharibəsi vətənpərvərliyin işğalçılıqla döyüşüdür. Müharibə başlayan andan ədliyyə işçiləri də döyüşlərdə, o cümlədən könüllü iştirak edərək fədakar xidmətlər göstərib, həmçinin ordumuzla həmrəylik nümayiş etdirərək hərbçilərimizə, yaralılara və şəhid ailələrinə öz dəstəyini əsirgəməyiblər. Silahlı Qüvvələrin Yardım Fonduna və "Yaşat" Fonduna əməkhaqlarından könüllü vəsaitlər köçürüblər.

Xalq yaxşı bilirdi ki, Vətən müharibəsi Böyük Qələbə üçündür. Vətən müharibəsinin qəhrəmanlarına inanırdı ki, Ali Baş Komandan sərkərdəliyi ilə bu döyüşlər Böyük Qələbə ilə tamamlanacaq.

***Suqovuşanın, Cəbrayılın, Füzulinin, Xudafərinin sevinci Azərbaycan ordusunun zəfər yürüşünün ilk qələbələri kimi yaşandı.***

Xudəfərinin işğaldan azad edilməsi çox böyük coşqunluqla qarşılandı. Xudafərin Bəkr İbn Abdullahın körpüsüdür, Allahı sevənlərin, xeyirxah insanların körpüsü olmuşdur. 18 oktyabr tarixini hamı Xudafərinin yeni doğum tarixi kimi qeyd edəcəkdir.

"Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz, dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik", xalq Ali Baş Komandanın bu kəlamlarını Vətən müharibəsinin qəti qələbə ilə başa çatacağını zəmanət bilirdi.

Bu gün Azərbaycan əsgərinin qələbə ruhunun təntənəsi kimi işğaldan azad edilmiş torpaqlarımızda qalibiyyət bayrağı dalğalanır. Hamı noyabrın 8-i Şuşanın işğaldan azad edildiyi günü də, noyabrın 10-u Vətən müharibəsinin başa çatdığı günü də Azərbaycan əsgərinin qüdrəti bildi. Bu qüdrət dünyəvi qüdrətdir.

***Şuşa döyüşləri haqqında rus mediasında maraqlı bir məqalə dərc edilib. Müəllif Azərbaycan əsgərinin Vətən sevgisini, döyüş qabiliyyətini, qətiyyətini görərək heyrətini gizlədə bilmir: "Belə döyüş, dövlət, Vətənə sevgi gören olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiyinində, döyüşə-döyüşə, qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar" Bu kəlmələri Azərbaycanı sevənlər də, Azərbaycanı gözü götürməyənlər də, Azərbaycan Ordusunun müzəffər yürüşünə düşən bir işıq kimi oxuyub.***

Vətən müharibəsi müzəfər Azərbaycan ordusunun parlaq qələbəsi ilə başa çatdı. Tarixi qələbə qazandıq, torpaqlarımızı işğaldan azad etdik, əsgərlərimiz qalib əsgər adını qazandılar. Xalq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabr ayının 10-da müraciətini Vətən müharibəsinin başa çatması kimi dinlədi, həm də bir daha əmin oldu ki, bu müqəddəs müharibənin iştirakçıları heç bir zaman unudulmayacaq. Qazilər də, Şəhidlər də... "Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardn qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

***Qarşıda bizi müxtəlif dövlətlərin geosiyasi ambisiyalarının toqquşduğu kifayət qədər mürəkkəb diplomatik siyasi mübarizə kimi çətin vəzifələr gözləyir. Azərbaycan diplomatiyası 2070-ci illərdə yaşayacaq nəsillərə yeni Dağlıq Qarabağ və ya Naxçıvan sindromlarının yaradılmaması üçün bu gün olduqca mürəkkəb vəzifələri həyata keçirməlidir. Çünki, biz ilan kimi məkrli, tülkü kimi hiyləgər, canavar xislətli qaniçən və Azərbaycanı hər an arxadan vurmağa hazır olan namərd düşmənlə qonşuluq etmək məcburiyyətindəyik.***

Ermənistan zaman-zaman Azərbaycan, Türkiyə və Gürcüstan torpaqlarına göz dikən dövlətdir. Hazırda Ermənistanın öz ərazisi 29.6 min km2 -dir. Halbuki, 1918-ci ildə imzalanmış Batumi müqaviləsinə əsasən onun ərazisi cəmi 9 min km2 təşkil edirdi. Deməli, qalan 20 min km2 ərazi Azərbaycan torpaqlarıdır.

Dekabrın 10-da keçirilən möhtəşəm Zəfər paradı Azərbaycanın gücünü və tarixi Qələbəmizi bütün dünyaya bir daha nümayiş etdirdi. Zəfər paradı müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 gün davam edən "Dəmir yumruq" hərbi əməliyyatlarda qazandığı tarixi qələbənin təcəssümü oldu. Şanlı ordumuz işğal altında olan ərazilərimizi birdəfəlik işğaldan azad etməklə düşmən üzərində misli görünməmiş qələbə qazandı. 30 il həsrət qaldığımız Vətən torpaqlarında indi üçrəngli Azərbaycan bayrağı dalğalanır.

Zəfər paradında nümayiş etdirilən texnikalar eyni zamanda ölkə rəhbərinin hərbi sahəyə göstərdiyi diqqətin nəticəsidir. Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin də bir qismi nümayiş etdirildi. Ən əsası isə İkinci Qarabağ müharibəsində iştirak edən hərbi hissələrin nümayəndələrinin, qazilərimizin, həmçinin Azadlıq meydanında torpaqlarımızı azad edən əsgərlərin sıra addımı ilə qələbəni qeyd etməsi hər birimizdə qürur və şərəf hissi yaradırdı.

Dövlətimizin başçısı cənab İlham Əliyevin 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibəti ilə keçən hərbi paradda söylədiyi bu fikirləri xatırlatmaq istəyirəm. "Gün gələcək və bu gun işğal altındakı torpaqlar azad olandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq". Nəhayət göstərilən gün, o böyük gün gəldi, vədə əməl olundu və biz bütün dünyaya Qalib Azərbaycan Ordusunun Zəfər paradını nümayiş etdirdik.

***Bu gün iftixarla deyə bilərik ki, Azərbaycan Ordusu hərbi əməliyyatlar zamanı ən yüksək səviyyədə innovativ yenilikləri tətbiq edən ordudur. Paradda nümayiş etdirilən hərbi texnika və silahlar dostlarımıza rahatlıq, düşmənlərimizə qorxu verir. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbə qardaş Türkiyənin böyük rolu olmuşdur. Vətən müharibəsi dövründə qardaş ölkəmizin Azərbaycana mövqeyini, gücünü, siyasi və mənəvi dəstəyini bütün dünya gördü. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın qələbə paradında iştirakı və qardaş Türkiyə ordusunun Azərbaycan ordusu ilə çiyin-çiyinə olması ayrıca qürurverici hadisə idi. Bu bir daha xalqımıza, türk dünyasına, beynəlxalq ictimaiyyətə, eləcə də düşmənə, onun havadarlarına xüsusi mesaj idi.***

Biz əminik ki, artıq Birinci Qarabağ müharibəsində və Vətən müharibəsində canlarından keçən şəhidlərin ruhları şaddır.

Zəfər paradında xalqımızın yaşadığı qürur yaddaşlarda əbədilik həkk olundu. İndi əminliklə deyə bilərik ki, artıq tarixi bir missiya başa çatdı və Qarabağ problemi beynəlxalq hüququn tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edildi. Bizə bu qələbəni yaşadan müzəffər Ali Baş Komandanımıza, rəşadətli Azərbaycan ordusuna, vətən torpağı uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq. Zəfərimiz mübarək olsun !

**Bu müharibədə qazandığımız qələbə Azərbaycan tarixinə əbədi həkk olunacaq.**

*Aqil ABBAS*

# İKİ METR QƏBİR YERİNDƏN BAŞQA NƏ QAZANDINIZ?

***Bir millətin 30 ilini əlindən aldınız. 30 ilini yox ey, körpəliyini, gəncliyini, sevincini, sevgisini, arzularını, həyatını əlindən aldınız. Analarını gözüyaşlı qoydunuz, yurdunu-yuvasını, ocağını, pirini tar-mar elədiniz, darmadağın elədiniz.***

***Dirilərinə işgəncə verməkdən yorulmayıb ölülərinə də işgəncə verdiniz. Nəinki faşistin, heç şeytanın da ağlına gəlməyən müsibətləri açdınız bu millətin başına.***

***Nə qazandınız?! Amma bilmədiniz ki, bu millət Simurq quşu kimidir, külündən od törəyir və yenidən qanad açır. Necə ki qanad açdı qanadlandı.***



***Bilmədiniz ki, şair Vaqif Bayatlı Odərin təbirincə desək, türk min illərin gün işığıdır, nə qədər basdırsan yenə torpağın üstündə qalar.***

***Min illərin gün işığını basdırammadınız və basdıramazdınız da, yenə torpağın üstündə qaldıq və əbədi qalacağıq.***

***Siz nə qazandınız?!***

***Dağıtdığınız şəhərləri, kəndləri, ocaqları yenidən tikirik və əvvəlkindən də gözəl, əvvəlkindən də yaraşıqlı. Qırdığınız meşələri yenidən salırıq, qurutduğunuz bulaqların gözünü yenidən açırıq, özü də bal kimi su gəlir.***

***Qırdığınız oğulları analarımız, bacılarımız, qızlarımız yenidən doğur və doğacaq.***

***Siz nə qazandınız?!***

***Şuşanın başı dumanlı dağlarında "Qarabağ şikəstəsi"ni yenidən oxuyuruq və oxuyacağıq. Uşaqlarımız yenə də Həkəridə qızıl balıq tutur.***

***Siz nə qazandınız?!***

***Azərbaycan dünyaya Günəş kimi doğur! Səməd Vurğun deyir:***

***İşıq güclənəndə çaşar qarovlar…***

***İndi siz o Günəş işığının altında çaşıb qalmısınız - Günəşiniz sönüb.***

***Siz nə qazandınız?!***

***Bu millət sizi yuxarı başda oturtmuşdu, layiq olmadığınız yerdə oturduğunuz üçün yıxıldınız.***

***Adam kimi yaşayırdınız, amma adam olmadığınız üçün yaşaya bilmədiniz. Olub-qalan hər nəyiniz vardı itirdiniz. Və hələ itirəcəksiniz də.***

***Dünyanı yığmışdınız arxanıza. Və elə bilirdiniz ki, arxalı köpəklər Qurd basır. Amma nə qədər arxalı köpək olsanız da Qurdu basa bilmədiniz. Və Qurd arxanızdakı köpəklərin 30 il ayağına vurduğu zəncirləri dişləriylə qoparıb atdı. Və Yaralı Qurd sizi də, arxanızdakı köpəkləri də cırıx-cırıx elədi. "Cırıx"ı ədəbi dildə özüm yazmadım, onda bir az yumşaq çıxır.***

***Siz nə qazandınız?!***

***Öz millətinizin gələcəyini özünüz məhv etdiniz, işığınızı özünüz söndürdünüz, sevincini və sevgisini özünüz məhv etdiniz. Analarınızı, bacılarınızı özünüz gözüyaşlı qoydunuz.***

***Babalarımız babalarınızın xəyanətinə görə küçük kimi qulağını kəsmişdi. Babalarımızın oğulları babalarınızın oğullarının qulaqlarını elə küçük kimi də kəsdi, qalmısınız zingildəyə-zingildəyə.***

***Siz nə qazandınız?!***

***Torpaq istəyirdiniz? Onu da qazandınız! Amma Qarabağı yox, Erablurdu-nədi o qəbiristanlıqda iki metr qəbir yeri qazandınız. Təpə-təpə kullanın.***

***O Metsamorda neçə aydır soyuducuda saxladığınız yüzdən çox meyidin sahibini tapa bildiniz, yoxsa yox?***

# Erməni deputatdan hüznlü "Naxçıvan dəhlizi" açıqlaması: Azərbaycan o yolu alacaq!



**2020-ci il noyabrın 10-da Qarabağda hərbi əməliyyatların bitməsi və atəşkəs barədə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin birgə bəyanatının 9-cu bəndində Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanı birləşdirən yeni nəqliyyat kommunikasiyalarının təmin edilməsi haqqında razılıq əldə olunub.**

Türkiyənin "TRT Haber" televiziya kanalı Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə əlaqəsini təmin edəcək yol barədə süjet də hazırlanmışdı.

Süjetdə bildirilir ki, avtomobil yolundan savayı ərazidə dəmir yolu xətti də mövcuddur və razılaşmaya əsasən, bu dəmiryolu xəttinin xidmətlərindən də istifadə olunacaq.

Xatırladaq ki, Sovet İttifaqı dövründə Azərbaycanla Naxçıvan arasında nəqliyyatın hərəkəti məhz bu yollar vasitəsi təmin edilib. Artıq bu məsələnin də həlli zamanı yetişib.

Adalet.az xəbər verir ki, bunu erməni siyasətçilərinin açıqlamasından da anlamaq mümkündür

Erməni deputat Qagik Melkonyan yerli mətbuata açıqlamasında mövzu ilə bağlı hüzn dolu fikirlər bildirib:" Azərbaycan Ermənistan ərazisindən keçməklə Naxçıvana mütləq yol alacaq. Biz buna yol deyirik, onlar (azərbaycanlılar) dəhliz deyirlər. İndi biz Qarabağa necə girib-çıxırıq? Onlar da bunu bacarmalıdırlar, Azərbaycan-Naxçıvan yolu olmalıdır", - deyə parlamentari bildirib.

Melkonyanın bu fikirlərini eyni hüznlə çap edən nəşr sonda məsələyə öz münasibətini də bildirməyi unutmayıb:"Ermənistan hökuməti nəinki Azərbaycanın Naxçıvana yol alacağı ilə razılaşacaq, həm də Ermənistanın həmin dəhlizə nəzarət edəcəyinə əmin deyilik".

***P.S.** **Ermənistanın baş naziri N.Paşinyan 10 noyabr üçtərəfli Bəyanata qol çəkib və qol çəkibsə mütləq həllini də tezləşdirməlidir!***

**Əntiqə Rəşid**



*Sədət Kərimi,*
*İsveçin KTN universitetinin dosenti, riyaziyyat elmləri doktoru, Aydınlar Ocağının sədri*

# Milli dəyər daşıyıcısı

## Professor Qulu Məhərrəmlinin doğum günü münasibəti ilə

**Bu yay pandemiyadan azacıq nəfəs dərib Bakıya səfər etdim, bir müddət paytaxtda qaldım, gözəl Şuşamıza səfər etmək qismətim oldu, ən başlıcası paytaxtda mənə doğma və əziz insanlarla görüşə bildim. Bakıda görüşdüyüm ən dəyərli insanlardan biri də ekranlardan və sosial şəbəkələrdən tanıdığım, əvvəllər verilişlərini sevə-sevə izlədiyim rofessor Qulu Məhərrəmli oldu. Çox səmimi, insan, intellektual həmsöhbət, gözəl dost kimi onunla bu görüş məni çox məmnun etdi. Azərbaycanda belə müasir düşüncəli bir ziyalının, müəllim və alimin olmasına çox sevindim. Ölkədə populyar teleaparıcı, publisist, həm də teletənqidçi kimi tanınan Qulu Məhərrəmli filologiya elmləri doktoru, BDU-nun professoru, AZLEKS elektron lüğətlər toplusunun baş redaktoru, "Jurnalistikanın inkişafına yardım" fondunun sədridir.**

Çoxları onu televiziya ekranlarından bir aparıcı və siyasi şərhçi kimi tanıyır. Vaxtilə AzTV-də "1000 saniyə" və "24 saat" xəbər verilişlərini aparıb. 1994-cü ilə kimi AzTV-nin əsas xəbər proqramlarının aparıcısı kimi fəaliyyət göstərib. 1993-1995-ci illər arasında çox populyar olan "7 gün" analitik-informasiya verilişinin, həmçinin AzTV ekranında efirə çıxan ilk müəllif proqramının ("Təfsilat", 1995) müəllifi və aparıcısı olub. 1995-ci ilin martında Azərbaycan televiziyasının siyasi icmalçısı təyin edilib. Bir müddət "Xəbərlər" baş redaksiyasına da rəhbərlik edib. Azərbaycan televiziyasında ən böyük xidmətlərindən biri yeni biçimli proqramlar yaratması və efirə plüralizm gətirməsi olub. Məsələn, indi də efirə gedən və maraqla baxılan "Səhər" musiqi-informasiya proqramını məhz Qulu Məhərrəmli yaradıb və 12 il bu proqramı hazırlayan redaksiyaya rəhbərlik edib.

Qulu müəllim 2007-ci ildə AzTV-ni tərk edərək fəaliyyətini Xəzər TV-də davam etdirib. 2007-2012-ci illər arasında Xəzər TV-də "Dost məclisi" və "Gündəm" proqramlarını aparıb. O dövrdə həmin televiziyanın qurulmasında iştirak edib, məsləhətçi və siyasi icmalçı vəzifələrində çalışıb.

Təpədən dırnağa kimi televiziyaçı olan Qulu Məhərrəmli müxtəlif mövzularda 20-yə yaxın sənədli filmin ssenari müəllifidir. Bu filmlərin bəziləri beynəlxalq festival və müsabiqələrdə nümayiş etdirilib. Bir neçə xarici çoxseriyalı filmin Azərbaycan dilinə dublyajının bədii rəhbəri olub. 2016-2019-cu illərdə Gunaz TV-də yayımlanan "Mətbuat aynasında" proqramının aparıcısı olub və bu kanalın populyarlaşmasında ciddi rol oynayıb. Elmi ictimaiyyət Qulu müəllimi nüfuzlu jurnalistika mütəxəssisi, nəzəriyyəçi-alim, bu sahənin aktual problemlərinə dair əsaslı tədqiqatların, dərslik və lüğətlərin müəllifi, Azərbaycan türkçəsinin müasir problemlərini araşdıran və Ana dilinin təmizliyi uğrunda əzmlə mübarizə aparan alim kimi tanıyır. 1982-ci ildən elmi fəaliyyətlə məşğul olan Q.Məhərrəmli 1989-cu ildə "Radiodramaturgiya dili" mövzusunda namizədlik, 2004-cü ildə isə "Televiziya dili: funksiya və struktur" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Jurnalistika üzrə ölkədə ilk elmlər doktorudur. Elmi araşdırmalarında jurnalistikanın və medianın ümumi nəzəriyyəsi, televiziya və radionun tarixi, aktual elmi-nəzəri problemləri, o cümlədən ekran-efirin mürəkkəb dil sisteminin öyrənilməsi əsas yer tutur. Milli dəyər daşıyıcısı olan Qulu Məhərrəmli həm də ölkədə Qarabağ və Cümhuriyyət mövzusunun gündəmdə qalmasına ən çox çalışan, bununla bağlı saysız-hesabsız məqalə və şərhlər yazan istedadlı publisistdir. Onun "Zamanın rəngləri" (2013) və "Gələcəyə ön söz" (2019) publisistik məqalələri toplanmış kitablarında əsas mövzular da elə bunlardır.



Mən Qulu hocamı həm də Azərbaycanda ziyalıları bir araya gətirən, müxtəlif görüşlü məslək adamları arasında körpü yaradan, milli məsələlərdə faydalı insanlarımızı tapıb üzə çıxaran ictimai şəxs kimi tanıyıram. O, İsveç televiziyasında "Açıq Kanal" adlanan platformada həftədə bir dəfə bir saat efirə gedən "Azərbaycan"proqramının hazırlanmasına təmənnasız yardım edir. Bu proqramı ərsəyə gətirən prodüser və rejissor, İsveçdə yaşayan soydaşımız Rahim Sadıqbəyliyə ən çox dəstək verənlərdən biri məhz professor Qulu Məhərrəmlidir.

Qulu Məhərrəmli ictimai xadimdir və onu milli dəyərləri yaşadan təşəbbüsləri ilə tanıyıram. Ən əsası isə AXC qurucularının irsinə sahibləndiyinə görə, "Məhəmməd Əmin Rəsulzadə EV muzeyi" ictimai qurumun yaradılmasında olan zəhməti və təşəbbüskarlarından olduğu üçün özəlliklə Qulu hocamı çox sevirəm. Təşəbbüs qrupunun üzvləri Azərbaycanın Əməkdar rəssamı, M.Ə.Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə, tarix üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Solmaz Rüstəmova-Tohidi, filologiya üzrə elmlər doktoru, professor Qulu Məhərrəmli, yazıçı-publisist, Rəsulzadələr ailəsinin tədqiqatçısı Nəcibə Bağırzadə, hüquqşünas, Milli Hüquq Evinin rəhbəri olmuş, bu ilin yazında koronadan rəhmətə gedən Nicat Gözəlov oldular. Bu gün qrupun bir çox dəyərli ziyalılardan ibarət üzvləri vardır. Mən də həmin ictimai qurumun bir üzvü olduğumdan çox məmnunam və bununla fəxr edirəm. Qurumun əsas məqsədi Azərbaycan Cümhuriyyətinin qurucusu və ilk dövlət başçısı, İstiqlal məfkurəsinin və "azərbaycançılıq" ideologiyasının yaradıcısı, görkəmli ictimai, siyasi və dövlət xadimi, ədib, publisist M.Ə.Rəsulzadəni Vətənə qaytarmaqdır. Bu işə "qədirbilən Xalq, minnətdar Millət, şüurlu Vətəndaş Cəmiyyəti olduğumuzu sübut etməklə biz başlamalıyıq və biz də onu başa çatdırmalıyıq. Bu işin mənəvi və maddi məsuliyyəti da bizim öhdəmizdə olmalıdır! Məhəmməd Əmin Rəsulzadənin ev muzeyi" layihəsi Dövlətlə Xalqın, Hakimiyyətlə Cəmiyyətin birliyinin ən bariz nümunəsi ola bilər" - ictimai qurum üzvlərinin ümumi fikri belədir.

**Noyabrın 2-də dəyərli Qulu Məhərrəmlinin doğum günüdür. Mən hər zaman ədalət və həqiqətin yanında olan, həmişə bu cəmiyyəti maarifləndirməyə çalışan heç vaxt prinsipiallığını, qürurunu və illərdir qazandığı hörməti itirməyən ziyalımızı bu münasibətlə ürəkdən təbrik edirəm! Sizə bütün qəlbimlə sağlıqarzulayır, işlərinizdə daim uğurlar diləyirəm.**

*Yılmaz Özdil*

# Cümhuriyyət qadındır



*(əvvəli ötən sayımızda)*

*Qadınların da iştirak etdiyi ballar təşkil edilməyə başlanmışdı. Amma qadınlar salonun bir tərəfindən toplaşıb dəstə-dəstə otururdular.*

*Hətta bufetə gedib yemək almaq üçün də tərpənmirdilər, sanki ayıb bir işmiş kimi çəkinirdilər.*

*Tək-tük cəsur qadını ayaq üstdə görmək olurdu.*

*Mustafa Kamal qadınları təşviq etmək üçün kişilərə yol göstərir, "Ayağa duran xanımlara hörmət edin, ayaqda duran xanımlara xidmət edin, oturanlar yavaş-yavaş qalxın" deyirdi.*

*Doğrudan belə idi, qayğı göstərirdi.*

*Kişi kişiyə başlayan hər gecənin sonunda qadınlar kişilərlə qaynayıb-qarışır, söhbət edirdilər.*

***

*Qadına qadın olaraq xitab edilməsini belə kobudluq hesab edirdi.*

*Axşamların birində məsələn, Selahattin Pınar yeni bəstəsini oxuyurdu.*

Gel, gel, gel, gitme kadın
ruhumu hicranına yakma
inlet beni, öldür beni, ağyara bırakma
karşında esirim, bana düşman gibi bakma

*Mahnı bitir, Mustafa Kamal alqışladığı halda öz təklifini də dilə gətirir.*

*"Çox gözəldir, amma bu "qadın" sözü burda qalın səslənmirmi? Qadının incəliyini, nəzakətini daha yaxşı ifadə edə biləcək bir söz qoyasınız, tutaq ki, "canım" desəniz, olmazmı? - dedi.*

*Mahnının sözlərini Selahattin Pınar yazmamışdı, buna rəğmən müdafiə edir, "zənn edirəm ki, qadın sözü yerindədir, çünki canım sözü bir kişiyə də deyilə bilər" - cavabını verir.*

*Mahnıdakı qadın elə qadın olaraq da qalır.*

***

*Sevginin nələrə qadir olduğunu bilirdi.*

*1936…*

*İngiltərə kralı Edvard İstanbula gəlmişdi.*

*Kürək-yelkən yarışlarını birlikdə izləyirdilər.*

*Kralın heyətində amerikalı bir qadın var idi.*

*Mustafa Kamalın iti gözləri bu detalın üstündən keçmədi, dostlarıyla söhbət edərkən "kralın o xanım əfəndiyə rəğbəti var, qorxuram bu səbəbdən taxtını itirsin" - dedi.*

*Elə də oldu.*

*Wallis Simpson ətrafına işıq saçan qadın idi. Evli idi. Kralla eşq yaşayırdı. İstanbula gələndə sevgili olduqları bilinmirdi.*

*İngiltərəyə qayıdanda boşandı.*

*Kraliyyət qanunları, ənənələr, kilsə - hamısı qarşı idilər, tək çarə var idi. Türkiyə səyahətindən üç ay sonra radiolarının başında oturan ingilis xalqı qulaqlarına inana bilmirdi, Kral Edvard dul sevgilisilə evlənə bilmək üçün taxtından əl çəkdi, qardaşı kral oldu.*

***

*İlk rəsm gözəllik yarışması 1929-cu ildə Cümhuriyyət qəzeti tərəfindən təşkil olundu.*

*Elanlar verildi, iştirak üçün qaydalar belə idi:*

*"İrq, din və məzhəb fərqi yoxdur. 15 yaşından böyük hər namuslu türk qızı iştirak edə bilər. Yalnız üz gözəlliyi müsabiqəsi deyil. Əndam da şərtdir".*

*125 namizə qatıldı.*

*Halit Ziya Uşaklıgil, Peyami Safa, Cenap Şahabettin, Hüseyin Rahmi Gürpınar, Abdülhak Hamit Tarhan, rəssam İbrahim Çallı, mimar Vedat Tek, teatrdan Vasfi Rıza Zobu, Bedia Muvahhit, qəzetçilər Zekeriya Sertel, Sabiha Sertel, Vala Nurettin, Yusuf Ziya Ortaç münsif heyətində idi.*

*Feriha Tevfik ilk Türkiyə gözəli seçildi.*

***

*1932-ci ildə Keriman Halis Türkiyə gözəli seçildi.*

*Belçikadakı beynəlxalq finala qatılan 28 ölkə təmsilçisi ilə yarışdı.*

*Dünya Gözəllik Kraliçası oldu.*

*Cümhuriyyətdən əvvəl insan yerinə belə qoyulmayan, çarşabın, qəfəsin arxasında gizlədilən türk qadını dünyanın ən gözəl qadını oldu.*

***

*Mustafa Kamal təbiiliyi sevərdi, makiyajı yox.*

*Ətrafındakı qadınların heç biri dodaq və dırnaq boyası çəkməzdi.*

*"Boya küpü" - deyərdi.*

***

*Qadınlarla bağlı kitablar oxuyurdu.*

*Enis Behiçin "Tarihte Güzel Kadınlar" adlı kitabını əlindən yerə qoymamış, səhərə qədər oxuyub qurtarmışdı.*

*Giorgio Quartaranın "Kadın ve Tanrı" adlı kitabını, xüsusilə İslamla bağlı hissələrini işarələyərək oxumuşdu.*

*Qadına aid hər laızmlı məlumatı qeyd edərdi.*

*Yunan tarisini araşdırarkən miladdan əvvəl 600-cü illərdə Midili adasında dünyaya gələn, antic dövrün qadın şairi olan Safonu maraqla araşdırmışdı.*

*Kadına dair her çarpıcı bilgiyi not ederdi.*

*Fransız inqilabının qadın qəhrəmanlarını araşdırmışdı.*

*Xetlərdə qadınlar kişilərlə bərabərhüquqlu idi, siyasi kimlikləri var idi, ölkə idarəçiliyində söz sahibi idilər, rahinə, həkim, musiqiçi kimi hər sahədə var idilər.*

*Mustafa Kamalın Xet marağının diqqət mərkəzlərindən biri qadın idi.*

***

*1935.*

*Beynəlxalq Qadınlar Birliyini Türkiyəyə dəvət etdi.*

*Beynəlxalq Qadın Konqresinə ev sahibliyi etdi.*

*Feminizm konqresi idi.*

*36 ölkədən 360 qadın nümayəndə qatıldı.*

*ABŞ, Böyük Britaniya, Hollandiya, İsveçrə, Avstraliya, Misir, Hindistan, Bolqarıstan, Çexoslovakiya, Yeni Zelandiya, Rumıniya, Fransa, Norveç, Yuqoslaviya, Portuqaliya, Yamayka, İran, Polşa, Yunanıstan, Estoniya, Suriya, Danimarka, Misir, Belçika, Bermud Adalar, Finlandiya, İrlandiya, İslandiya, İspaniya, İsveç, İtaliya, Lüksemburq, Macarıstan, Şri-Lanka, Uruqvay…*

*Nümayəndələrin hamısı öz ölkələrində qadın haqları uğrunda mübarizə aparan, sənət sahibi və ya parlament üzvü idi.*

*Türkiyəni 24 nümayəndə təmsil etdi.*

*Türk Qadınlar Birliyinin sədri Latife Bekir idi.*

*Köməkçiləri Aliye Esad, Lamia Refik ve Nermin Muvaffak idi.*

*Bundan əlavə, 1935-ci il seçkilərində Türkiyə Böyük Millət Məclisinə daxil olan Türkiyənin ilk qadın millət vəkilləri də orada idi.*

*Yıldız Sarayında təşkil olundu.*

*Bir həftə davam etdi.*

*Kürsünün arxasında iki böyük türk bayrağı var idi.*

*Bayraqlarımızın arasında "Justice-Ədalət" yazılmış pankart asılmışdı.*

*Danışıqlar fransızca, almanac, ingiliscə aparıldı.*

*Hüquq qarşısında kişi-qadın bərabərliyi, bərabər təhsil haqqı, bərabər peşə haqqı, iqtisadi azadlıq haqqı üzərində dayandılar.*

*"Uşaq gəlin" probleminə diqqət çəkildi.*

*Müharibələrin tək-tək fərqli ölkələrin deyil, övladların ölməsi üzündən "dünya qadınlarının ortaq problemi" olduğu diqqətə çatdırıldı.*

*Türk Qadınlar Birliyinin sədri Lətifə Bəkir çıxışını fransızca etdi: "Türk qadınını hərəm qəfəslərindən xilas edən, parlamentin kürsüsünə çıxaran, türk qadınını kişisinin yanında layiq olduğu yerə dəvət edən Mustafa Kamal Atatürkə minnət borcumuz var"*

*Beynəlxalq Qadınlar Birliyinin sədri Corbett Ashby, "Əslində feminizm konqresimizin ən mühüm hadisəsi Atatürklə görüşməkdir" dedi.*

*Avstraliyalı nümayəndə Kardel Oliver 28 min kilometr yol qət etmiş və həftələrlə davam edən səyahətlə gələ bilmişdir. O, "Türk qadınına və O böyük insana olan hörmətimin yanında yorğuluğumdan söz gedə bilməz".*

*Misir Feminist Birliyinin sədri Hüda Şaravi "Bu konqres bizim üçün bayramdır, Türkiyə bütün Şərqdə qadın hüquqlarını tanıyan ilk ölkədir, İslam qadınlığı qurtuluşunu Atatürkə borcludur, türklər Ona Atatürk deyir, bizim üçün bu bəs etməz, O, bizim üçün Ata Şərqdir!" - dedi.*

*Ziyarətə gələn nümayəndələr öz milli geyimlərini geyinmişdilər.*

*Onlar Taksim ətrafındakı otellərdə qonaq edilmişdilər.*

*Pera Palasda əlaqə bürosu yaradılmışdı.*

*Onların İstanbula səfəri üçün xüsusi avtobuslar ayrılmışdı.*

*Dolmabahçədə hər gün günorta çay vaxtı olurdu.*

*Bəylərbəyi sarayında nahar edirdilər.*

*Ölkə bayraqları ilə təchiz olunmuş xüsusi bərə hazırlanmışdı.*

*Onlar bu bərə ilə Boğazı gəzirdilər.*

*Türkiyə Böyük Millət Məclisində xüsusi qanun qəbul edildi və Nobel mükafatı laureatları qazanan qadınlar - Marie Curie, Sigrid Undset, Jane Addams, Grazia Deledda, Selma Lagerlöf, Bertha von Suttner, Irenenin fotoşəkilləri olan "Beynəlxalq Qadınlar Konqresinin xatirə markaları" buraxıldı.*

*Özü də 1,5 milyon ədəd.*

*Türkiyənin müdhiş təqdimatı olmuşdu. ABŞ-dan Avstraliyaya, Misirdən Finlandiyaya dünya qəzetlərində geniş yer verildi.*

*Yunan qəzetlərində həm təəccüb, həm qısqanclıq, həm də böyük hörmət vardı. Akropolis qəzetinin baş yazısında bunlar yazılırdı:*

*"Kim təxmin edə bilərdi? 15 il əvvəl kimə desən inanardı? Hərəm həyatının yanına yaxınlaşmaq belə qadağa olan məhbus qadını, türk qadını bugün dünyanın feministlik tacını gəzdirir".*

*Konqres bitdi.*

*Dünya Qadınlar Birliyi heyəti Ankaraya getdi.*

*Atatürk Çankaya köşkündə qapıda qarşıladı.*

*Dünya qadınlarına xitabən bu tarixi çıxışını etdi.*

*"Türkiyəyə gəldiyiniz və beynəlxalq konqresinizin İstanbulda keçirilməsinə razılıq verdiyiniz üçün təşəkkür edirik. Türk qadını heç bir sahədə kişilərdən geri qalmayacaq. Türk qadınları heç bir sahədə Avropa qadınlarından geri qalmayacaq. Türk qadınları daha böyük nəsilləri yetişdirməyə qadirdir. Qadınlarımızın əsl mübarizə sahəsi, əsl qələbənin qazanılmalı olduğu sahə, maskalanmış uğurdan çox, bilik, mədəniyyət və əsl fəzilətlə bəzənməkdir. Türk qadınlarının dünya qadınları ilə əl-ələ verərək dünya sülhü, dünya hüzuru üçün çalışacaqlarına əmin ola bilərsiniz".*

*Cümhuriyyət qadındır.*

***Dilimizə uyğunlaşdıran:***
***Eminquey***

# YUSİF MƏMMƏDƏLİYEV VƏ İNDİKİ SƏLAHİYYƏTLİ AKADEMİKLƏRİMİZ

**1942-ci ildə 37 yaşlı gənc alim Yusif Məmmədəliyevin icadı sayəsində II Dünya müharibəsi zamanı faşistlərlə gedən döyüşlərdə sovet qırıcı təyyarələri havada üstünlüyü ələ keçirmişdi.**

1945-ci ildə SSRİ Elmlər Akademiyasının prezidenti B.L.Komarov Yusif Məmmədəliyevin fəaliyyətini yüksək qiymətləndirərək deyirdi: "Təkcə Yusif Məmmədəliyevə görə Azərbaycanda Elmlər Akademiyası açılmalıdır". Həqiqətən də, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təsis edildi. Müharibədən sonra Yusif Məmmədəliyev Akademiyanın prezidenti oldu.

1954-cü il noyabr ayının 19-da Yusif Məmmədəliyev digər böyük ixtirası ilə dünya elminə yeni töhfə verdi. Belə ki, onun icad etdiyi bərk raket yanacağının köməyi ilə sovet kosmik raketləri atmosferi yarıb orbitə çıxa bildi və dünyada ilk dəfə



olaraq 1957-ci il oktyabr ayının 27-də məhz sovet süni peyki çəkisizlik şəraitinə qalxdı.

Ləyaqətli həyat sürmüş və son dərəcə faydalı fəlaiyyət göstərmiş dünya şöhrətli azərbaycanlı alim Yusif Məmmədəliyev müharibənin o ağır dövründə yüksək oktanlı benzin ixtira etmişdir.

Dünyaya misilsiz töhfə verən bu dahi alimin cəmi 6 monoqrafiyası olmuşdur.

İndi dövlət büdcəsini sovurub müxtəlif əyri yollarla elmin kürəyinə xəncər soxan, müftə pullar töküb onlarla, hətta yüzlərlə faydasız və saxta kitablara müəlliflik, redaktorluq, baş redaktorluq edən, bununla da öz xalqını aldadıb kor qoyan, milli ədavət və intriqa toxumu səpən, öz dövlətinə, xalqına kəm baxan akademik-alimlər belə şəxsiyyətləri ananda, görəsən, zərrə qədər də xəcalət çəkirlərmi?

Düşünmürlərmi ki, nə qədər mane olub keyləşdirsələr də, elmin və texnikanın kosmik sürətlə inkişaf etdiyi bir dövrdə yaxın onilliklərdə gələcək nəsil onların müfrəz "şedevrləri"ni görüb müəlliflərini lənətlə anacaq, boşuna xərclənən vəsaitlərə heyfsilənəcəklər?!

MƏNƏVİ DEQRADASİYA: Y.Məmmədəliyevlər ixtiralar etdilər, bu gün "çoxbilmiş" akademiklər yüz hiylə qurub nefti barreli ilə içməklə məşğul oldular. Əsərlərinin isə mini birinə, biri də mininə dəymədi.

Yalnız xalqın boğazından kəsib ələ keçirdikləri milyonların hesabına saxta əsərlərini "şedevr" kimi reklam etmək və gözə soxmaqla titullarına, vəzifə səlahiyyətlərinə və yaratdıqları şəbəkənin gücünə arxalandılar. Min təəssüf!

***P.S. Dünya elm tarixində bəşəriyyətin rifahı üçün faydalı işlər görmüş azərbaycanlı alim Yusif Məmmədəliyevin-indiki elmə faydası olmayan akademik-alimlər kimi 40, 50,100, 200 kitabı, hətta 1000, 2000 məqaləsi yox - cəmisi 200-dən artıq elmi məqaləsi və 6 monoqrafiyası olmuşdur!***

***15 dekabr 1961-ci ildə 55 yaşında Haqqın dərgahına qovuşmuş böyük Vətən oğlunu daim sonsuz rəhmət və dərin minnətdarlıqla anırıq!***

**İdris Abbasov**

## *Taliban toya basqın etdi - 3 nəfər öldü!*



**Əfqanıstanın idarəçiliyini ələ keçirən Talibanın rejimi illərdir müharibə və yoxsulluq məngənəsində yaşayan əfqan xalqına çətin günlər yaşatmaqda davam edir. Özlərini Taliban rəsmiləri kimi təqdim edən silahlı şəxslər ölkənin şərqindəki kəndlərdən birində keçirilən toya basqın edərək azı 3 nəfəri öldürüb, 10 nəfəri yaralayıb. Toya silahlı basqının musiqi səsləndiyi üçün baş verdiyi açıqlanıb.**

BBC-də yer alan xəbərə görə, Nangarhar bölgəsində təşkil edilən və dörd cütlük tərəfindən təşkil edilən kütləvi toy məclisindən əvvəl bölgənin yerli Taliban rəhbərindən "yalnız qadınlar üçün nəzərdə tutulmuş bölmədə" musiqi çalmaq üçün icazə alınıb. Lakin gecə saatlarında silahlı şəxslər toy məkanına soxularaq əvvəlcə musiqi yayımı cihazlarını və dinamikləri sındırıblar. Toy iştirakçıları vəziyyətə etiraz etdikdən sonra atəş açılıb. Taliban sözçüsü Zabihullah Mücahid hadisə ilə bağlı istintaqın davam etdiyini açıqlayıb. O, 3 silahlının yaxalanaraq həbs edildiyini etiraf edib, lakin onların Taliban üzvləri olduğunu təkzib edib.

Xatırladaq ki, Əfqanıstanda Taliban hakimiyyətdə olduğu 1996-2001-ci illərdə musiqi qadağan edilib. Lakin ölkəni yenidən ələ keçirən Taliban tərəfindən musiqiyə qadağa qoyulacağı hələlik açıqlanmayıb.

**İLTİFAT**

# Qarabağ böyük üzümlüklər diyarına çevrilə bilər

(əvvəli ötən sayımızda)

**Bu cəhətdən ümumi prinsip belədir ki, üzüm sortlarının yerli şəraitə uyğun olaraq düzgün seçilib yerləşdirilməsi, sortların rayonlaşdırılması, üzümlüklərin sort tərkibinin dəqiqləşdirilməsi, habelə emal müəssisələrinin istehsala uyğun yerləşdirilməsinin nəzərə alınması, yeni üzümlüklərin yalnız rayonlaşdırılmış sortlardan ibarət yüksək keyfiyyətli və məhsuldar əkin materialı hesabına salınmasına xüsusi əhəmiyyət verilməlidir. Bizcə,bu mənada üstünlük əsasən yerli və perspektiv sortlara verilməlidir.**

Təcrübə göstərir ki, hər hansı bir sort irsi cəhətdən az məhsuldardırsa, becərildiyi təbii şəraitə uyğun deyildirsə, ən mütərəqqi aqrotexniki tədbirlər belə onu yüksək məhsuldar edə bilməz.

Buna görə üzüm sahələrinin genişləndirilməsi müvafiq keyfiyyət göstəricilərinə cavab verə bilən sortlar hesabına həyata keçirilməlidir. Adətən keyfiyyətli üzüm sortları seçilərkən, sort daxilində rast gəlinən mənfi xüsusiyyətli, yəni xəstəlik və zərərvericilərə qarşı davamsız klonların ləğv edilməsi yolu ilə əkilən sortların tərkibi yaxşılaşdırılır ki, bu da gələcəkdə yüksək məhsuldarlığın alınması üçün mühüm şərtlərdən biridir. Yəni, Azərbaycanda elmi əsaslarla rayonlaşdırılmış hesab edilən süfrə sortları əsasən Təbrizi, Ağ Şanı, Qara Şanı, Mərəndi, Şəfeyi, Ağ Xəlili və s.kimi yerli sortlarla yanaşı, İsgəndəriyyə Muskatı, Hamburq Muskatı, Qaraburnu, Kardinal, Ağ Şasla, Çəhrayı Tayfı və s.kimi gəlmə sortları göstərmək olar. Bu sortlar tək Qarabağda deyil, Respublikanın bütün bölgələri üçün yararlı hesab olunur. Əlbətdə yeni üzümçülük rayonlarında istər süfrə və istərsə də sənaye sortlarının sayı müvafiq qaydada xeyli azaldıla və ya artırıla bilər.

Vaxtilə bölgədə istehsal edilən "Mil" markalı şərab beynəlxalq sərgi və dequstasiyalarda qızıl medala layiq görülmüşdür. Bölgənin dağlıq hissəsində becərilən Xindoqnı sortundan Çəhrayı süfrə şərabı "Qarakənd", "Qırmızı portveyn" şərabları hazırlanırdı. İşğal zamanı Qarabağ torpaqlarında 50 min hektar üzüm bağı dağıdılmış, 18 emal zavodu, 10 ədəd şərab süzmə xətti mənimsənilmişdir. Bu sənaye müəssisəsinin itirilməsi Respublika iqtisadiyyatına təxminən 500 milyon ABŞ dolları həcmində ziyan vurmuşdur.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Qarabağın şərabçılıq ənənələri bərpa edilməlidir. "Ağdam portveyn" (N 10) ağ tünd şərabı 1946-cı ildən bəri Bayanşirə üzüm sortlarından hazırlanırdı. Bu üzüm sortundan eyni zamanda "Bayan" süfrə şərabı, "Ağ" süfrə şərabı (N3) da, hələ 1934-cü ildən istehsal olunurdu. "Novruzlu" ağ süfrə şərabı satışa Ağdamda (keçmiş Natavan adına sovxoz) hazırlanırdı. Burada "Portveyn-777" şərabı respublikada və keçmiş ittifaqda məşhur olan ən qiymətli şərab hesab olunurdu. Bu şərab 1960-cı ildə Macarıstanda, 1970-ci ildə isə Yaltada gümüş medallara layiq görülmüşdür. Bunlarla bərabər Qarabağda, o cümlədən Xankəndi və Xocalı rayonlarında, Xankəndi və Ağdərə rayonunda Xindoqnı üzüm sortundan yüksək gəlir gətirən "Ağdərə" şərabı istehsal olunurdu. Bu şərabların çoxu beynəlxalq müsabiqələrə, müxtəlif mükafatlara layiq görülmüşdür. Bütün bu deyilənlərdən sonra, yüksək məhsuldar və kənardan gətirilmiş bir çox süfrə sortlarının, hansılarki Qarabağ bölgəsi rayonları üçün təklif oluna bilər, onların qısa aqrobioloji xüsusiyyətləri haqqında məlumatlara diqqət yetirmək lazımdır. Azərbaycanda ənənəvi sort kimi tanınmış Təbrizi və Ağ Şanı sortlarını tək Qarabağda deyil, Azərbaycanın əksər rayonları üçün yerli təbii-iqlim şəraitinə yararlı sortlar kimi hesab etmək olar. Təbrizi süfrə sortunun bir çox süfrə sortlarından fərqləndirən hər şeydən əvvəl onun yüksək keyfiyyəti, məhsuldarlığı, daşınmaya və saxlanmaya qarşı davamlılığı və gilələrinin iriliyidir. Bundan əlavə Təbrizi sortu təbii-iqlim



cəhətdən və tətbiq olunan aqrotexnikadan asılı olaraq güclü boyatma qabiliyyətinə malik olduğunu nəzərə alaraq, ona çoxqollu yelpik forması vermək və yükünü artırmaqla sortun məhsuldarlığını hər hektardan yuxarıda göstərildiyi kimi 160-200 sentner, şəkərliliyini isə 18,5-20%-ə çatdırmaq mümkündür.

Sənaye xarakterli üzüm sortlarından Bayanşirə aqrobioloji xüsusiyyətlərinə görə ən yaxşı göstəriciləri ilə fərqlənən Azərbaycanın xalq seleksiyası yolu ilə yaradılmış yüksək məhsuldar yerli sortudur. Gec yetişən və güclü boy artımına malikdir. Sortun qulluq işləri, yəni tətbiq olunan innovasiya texnologiyalarından asılı olaraq hər hektardan 150-400 sentnerə qədər məhsul verə bilən bu sortun üstünlüyü yüksək məhsuldar olması ilə bərabər, eyni zamanda təzə halda da süfrə üzümü kimi istifadə edilə bilər, ətirli süfrə şərabı, şampan və konyak materialı istehsalı üçün daha yararlı hesab edilir.

Texniki və süfrə üzüm sortlarından bol üzüm məhsul əldə etməkdən ötrü üzümçülüklə məşğul olan hər kəsin əkdiyi tingin keyfiyyətli olmasını əvvəlcədən yəqin etməyi vacibdir. Belə ki, sort nəinki onun hansı torpaq-iqlim şəraitində becərilməsini müəyyənləşdirir, həmçinin alınan məhsulun keyfiyyətli olmasını da şərtləndirir. Qarabağda üzümçülük böyük gəlir mənbəyi olmaqla bərabər, həm də kənd təsərrüfatında böyük əmək tutumlu bir sahə kimi kənddə yeni iş yerinin açılmasını, il boyu sənaye istehsalında olduğu kimi davamlı istehsalat şəraiti yaradır. Yəni kənd əhalisi il boyu əməklə məşğul olur və gördüyü işin müqabilində adi sənaye işçisi kimi hər ay əmək haqqı alır və daimi iş yeri kimi məhsuldar əməklə məşğul olur. Bu da təbiidir. Çünki, üzümçülük Azərbaycan xalqının çoxəsirlik ənənələrinə uyğun bir istehsal sahəsidir, böyük iqtisadi əhəmiyyətə malikdir. Bir tərəfdən də yeganə sahədir ki, onun inkişafına çəkilən əmək və vəsait xərcləri bütün hallarda yüksək iqtisadi effektlə nəticələnir. Bu hər şeydən əvvəl üzümün təzə halda geniş istifadə edilməsi və məhsulun bir hissəsinin alkaqollu və alkaqolsuz içkilər istehsalının realizə edilməsi ilə bağlı olur. Ona görə uzun müddət dövriyyədə olmayan Qarabağ torpaqlarında üzümçülüyün geniş miqyaslı inkişafı fikrimizcə bu yerlərin kənd təsərrüfatında təxirə salınmaz bir vəzifə kimi qarşıya çıxır. Bu torpaqlarda ittifaq dövründə 300 min tona yaxın üzüm tədarük edilirdi. Burada çox çeşidli markalı konyak, müxtəlif markalı tünd şərablar ölkənin müxtəlif regionlarına göndərilirdi. Bu gün bu məsələnin geniş əhatəli bir formada reallaşmasına ehtiyac var. Ölkədə fermerlərin çətinliyi bu sahədə narahatlıq yaradır. Qabaqlar Azərbaycan üzüm sənayesi məhsulları Bakıdan başqa əsasən qonşu ölkələrə, o cümlədən Rusiyanın 7 böyük şəhərində fəaliyyət göstərən şərab zavodlarına göndərilirdi.

Bu gün Qarabağda üzüm-şərab istehsalını bərpa etmək və bu bölgənin əsas təsərrüfat istiqamətlərini başlıca olaraq müəyyən edən bir sahə kimi onun şöhrətini özünə qaytarmaq və qısa bir müddətdə torpaqların məhsuldarlığını artırmaq məqsədilə bir neçə tədbirlərin əvvəlcədən nəzərə alınmasına diqqət yetirilməlidir.

Məsələn, bölgənin qiymətli yerli süfrə və texniki üzüm sortlarının kolleksiyasının təşkili və ixtisaslaşması haqqında layihə işlərinin nəzərdə tutulması, texniki üzüm sortlarından "Mil" şərab brendlərinin istehsalı məqsədilə, eksperimental mikroşərabçılıq müəssisəsinin yaradılması, süfrə üzüm istehsalının təmərküzləşəcəyinin əsasən bu bölgədə həyata keçirilməsi iləbağlı yaxşı olardı ki, üzüm əkini ilə bir vaxtda Ağdam və Füzuli rayonlarında əhalinin uzun müddət təzə üzümlə təmin edilməsi üçün üzüm saxlama anbarlarının da eyni vaxtda inşasına başlamaq və nəhayət fermer təsərrüfatlarında ciddi narahatlıq doğuran hazır məhsulun satışında olan çətinliklərin həlli istiqamətində cari və perspektiv layihələr hazırlansın.

**Qarabağın işğaldan azad edilməsi ilə bağlı Ağdamın, Füzulinin, Ağdərənin, Xocavəndin, Cəbrayılın, Zəngilanın geniş və məhsuldar torpaqlarında üzümçülük və şərabçılığın səmərəli elmi təşkili və ixtisaslaşdırılması ilə əlaqədar Azərbaycan ET Üzümçülük Şərabçılıq İnstitutu öz yaradıcılıq fəaliyyətini müvafiq qurumlarla əməkdaşlıq çərçivəsində məmuniyyətlə davam etdirməyi özünə borc hesab edir.**

**Vüqar Səlimov**
**Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, a.e.d., dosent**
**Aynurə Quliyeva**
**İnformasiya təminatı və elmi nəticələrin tətbiqi şöbəsinin müdiri**

# Bütün dostlar sağ ola kaş...

## İstedadlı yazıçı-publisist Surxay Əlibəylinin xatirəsinə

**...Mən Surxay Əlibəyli qədər duzlu, yumorlu, bal kimi şirin adam az-az tanıyıram. Çünki onunla biz uzun müddət bir yerdə işləmişik. Toya, yasa getmişik. Və həmişə də heç kimdə olmayan səmimiyyəti, şirinliyi və doğmalığı onda görmüşəm. Görmüşəm ki, o bir tikə çörəyin bir yerə yox ey, üç-dörd yerə bölən adamdı... Görmüşəm ki, Surxayla getdiyim yol uzaq olsa da, amma o yumorla, o duzla çox qısa olub... Görmüşəm ki, süfrə arxasında çörək yeyəndə və eləcə də ürəyi istəyib yüz-yüz vuranda bütün dostlarını, bütün yaxınlarını, bütün əzizlərini xatırlayıb... Və hətta pul tapıb tez bir zamanda ehtiyac içində olan dostuna kömək göstərib...**

...Surxayın məndən də yaxın dostları olub. Onların üçünü bir daha yada salmaq istəyirəm: Elman Məmmədov, Süleyman Qaradağlı, Elşən Əliyev! Və bu dostların da Surxayla çox yaxın yoldaşlıqları, başqa sözlə demiş olsaq, çörək kəsməkləri olub. Çünki onlar Surxayla o qədər yerlərdə, o qədər məkanlarda olublar ki, saymaqla qurtaran deyil. Ən azından ona görə ki, o dostların bir-biri ilə çox şirin zarafatları, yumorları və xatirələri olub. Mən həmin xatirələrə toxunmaq istəmirəm. Sadəcə olaraq özümün gördüyüm, tanıdığım və dostluq elədiyim Surxayı bir daha xatırlamaq istəyirəm. Çünki Surxay Əlibəyli 3 il bundan əvvəl noyabrın 5-də Allahın dərgahına qovuşub. Çox qəribə idi ki, həmin günü hava boz olsa da, yağış yağmırdı. Aqil Abbasla onun dəfn olunduğu qəbiristanlığa getdik. Dedilər ki, bir neçə saatdan sonra dəfn olunacaq...

Surxayın var-dövləti yox idi. Elə eveşiyi gözə dəymirdi. Amma Surxayın ürəyinin böyüklüyü, sadəliyi və şirinliyi və ən nəhayət, Ağdama bağlılığı hər adamda yox idi. Belə baxanda o, ən varlı adam idi. Çünki bir tikəsini 10 yerə bölə bilərdi. Yeganə adam idi ki, sənlə dalaşardı, mübahisə edərdi və heç vaxt küsülü qalmazdı. Elə sabahı günü gəlib adamı qucaqlayıb öpər, yeyib-içməyə və başqa yerlərə dəvət edərdi. Bu yəqin ki, dostların hamısının yadındadı...

...O, çox istedadlı yazıçı-publisist, jurnalist idi. Respublika mətbuatında minlərlə yazısı dərc olunmuşdu. Həm də Ağdamla bağlı neçə-neçə kitabı işıq üzü görmüşdü. "Ağdam" deyəndə dodağı həsrətdən dörd yerdən çatlayardı, dodağı səyriyərdi. Mavi gözləri dolardı. Elə haçan da axtarırdın, deyirdi ki, Ağdamdayam, kitab yazıram. Və Ağdamın işğal altında olmayan kəndlərini qarış-qarış gəzirdi. Elə "Ağdamım, qibləgahım" kitabı da belə uzun axtarışların, zəhmətin bəhrəsi idi. O kitab çap olunanda onun mavi gözlərinə diqqətlə baxdım və bu mavi göz dənizə bənzəyirdi və bu dənizdə sevinc kədəri üstələmişdi. Həmişə də deyirdi ki, mən günün çıxmasına inandığım kimi, Qarabağın, Ağdamın da azad olunmasına inanıram. İnanıram ki, bir



gün Ağdama gedəcəm. O Ağdama gedə bilmədi. Ruhu bizdən əvvəl Ağdama, Şuşaya, Laçına, Kəlbəcərə, Cəbrayıla, Zəngilana, Füzuliyə getdi.

Bəlkə də Ağdam alınanda Surxayın ruhu elə əvvəldən orda idi. Tək Surxayın ruhu deyil, bütün şəhidlərin, Ağdamsevərlərin ruhu orda idi...

...Surxay deyirdi ki, mən öləndə qibləm Ağdamdı, məni Ağdam istiqamətində dəfn edərsiniz. Axı dedik, o təpədən-dırnağa doğma Ağdamına bağlı insan idi. Hətta onun yolunda şəhid olmağa belə hazır idi. Bir neçə dəfə onunla Quzanlıda olmuşduq. 1993-cü ilin noyabr ayı idi. Göyə baxdı, torpağa baxdı, ağacların saralmış yarpaqlarına baxdı, axırda da gözləri doldu. Dedi ki, Faiq, bax, Ağdamın bütün kəndləri, yaşayış sahələri Quzanlıya oxşayır. Bu il ağac əkirsən, gələn il bar verir. Quzanlı həm də elə Bəhmənliyə bənzəyirdi. Onda bizim kənd də işğal altında idi. Torpağı, havası, suyu, hətta adamları da bizim kəndim adamlarına oxşayırdı. Elə kövrəldim ki, bunu Surxay da hiss elədi. Hər ikimizin gözləri doldu və hər ikimiz də bir-birimizə təsəlli verib dedik ki, inşallah, tezliklə torpaqlarımız işğaldan azad olunar. Bu hadisədən 30 il keçəndən sonra işğal altında olan bütün torpaqlarımız yağılardan təmizləndi.

Surxay Əlibəyli bir dost olaraq hamımızın qəlbində, ürəyində əbədi iz qoyub. Surxayı xatırlayanda redaksiyamızda işləmiş və dünyasını dəyişmiş digər dostlarımız da yadımıza düşdü. Qoy onların adını və soyadını xatırladım ki, ruhları şad olsun: Əliyusif Məmmədov, Yusif Misiroğlu, Yusif İsmayıl, Nəriman Səttaroğlu, Ərşad Mirzə, Mail Cəbrayılov, Elcan (soyadı yadımdan çıxıb), Pərviz Əliyev, Vaqif Əliyev, Çingiz Ələkbərzadə, Səxavət Məmmədov, Qələndər Xaçınçaylı, Lətif Süleymanlı, Məhəmmədəli Mustafa, Nazim Ağamirov. Onların hər biri ilə biz çörək kəsmişik və onların hər birinin ruhu şad olsun. İnsan o vaxt ölür və yaddan çıxır ki, onu xatırlayan olmur. Allaha and olsun başqasını deyə bilmərəm. Mən onları hər həftə xatırlayıram, yada salıram. Hətta övladları ilə əlaqə də saxlayıram. Yerləri cənnət olsun!...

**...Surxaydan danışırdıq. Dostlarla bir yerə yığışan kimi yada düşənlərdən biri də Surxay olur. Çünki onun o qədər məzəli, şirin və yumorlu, dadlı, duzlu söhbətləri var ki. Düşünürəm ki, Surxay Əlibəyli kimi adamlar heç vaxt ölmürlər. Əgər biz sağıqsa, dostlar varsa, o həmişə yaşayır. Surxayın Ramiz Rövşənin bütün şeirlərindən xoşu gəlirdi. İki şeirini isə həmişə sevə-sevə əzbər deyərdi. Biri "Qara paltarlı qadın", biri də "Bütün dostlar sağ ola kaş". Elə yazımızı da dostumuz və qardaşımız Surxayın xoşladığı bu şeirlə bitirmək istəyirik. Qoy ruhu bu şeiri eşidib bir daha rahat olsun:**

***Mən öləndə ağlamağa***
***Bütün dostlar sağ ola kaş.***
***Gözlərimi bağlamağa***
***Neçə cüt barmaq ola kaş.***

***Boynunu büküb qapıda,***
***Bir qız göz yaşı axıda...***
***Üç balam şirin yuxuda,***
***Qadınım oyaq ola kaş.***

***Güc tapmasam ev tikməyə,***
***Qapımda ağac əkməyə.***
***Kəfən yox, məni bükməyə,***
***Bir yaşıl yarpaq ola kaş...***

**Faiq QİSMƏTOĞLU**

# "Mənim balaca dünyam"



**Yaxın günlərin söhbətidi. Azərbaycanın dəyərli şairlərindən çox hörmətli Yusif Həsənbəy telefonla söhbətimizdə mənə dedi ki, Əbülfət, sənə bir kitab göndərəcəm, maraqlı kitabdı. Mənim xoşuma gəlir, sən də bax. Xoşuna gəlsə, barəsində fikirlərini yaz.**

Təbii ki, ustadın bu təqdimatı artıq mənim hələ üzünü görmədiyim kitabla bağlı fikirlərə köklədi və söhbətimizdən bir neçə gün sonra elə şairin özü həmin kitabı mənə təqdim etdi. Əl boyda olan bu kitab uşaqlar barəsində idi. Daha doğrusu, uşaq dünyasını özündə ifadə edirdi. Adından da görünürdü ki, hər birimiz üçün əziz olan körpələrin, balacaların dünyasına üz tutubdu müəllif. Yeri gəlmişkən, Firəngiz Babayeva BDU-nun filologiya fakültəsini bitirib. Sonra magistr təhsili alıb. Və müəllimə kimi çalışan Firəngiz xanım elmi yaradıcılıqla da məşğul olmaqla yanaşı, həm də bədii sözə də üstünlük verir. Onun qələmindən çıxan hekayələr respublika mətbuatında artıq öz yerini təsdiq edib. Bu müəllifin oxucularına təqdim etdiyi ilk kitabdır. Kitabın naşiri Qəşəm İsabəyli, redaktoru yazıçı, şair, dramaturq, əməkdar incəsənət xadimi Yusif Həsənbəylidir. "Şirvannəşr"də ötən il işıq üzü görmüş kitabda müəllifin hekayə və nağılları toplanıbdı. Demək olar ki, bu nağıl və hekayələrin hamısı mövzusuna uyğun şəkillərlə təqdim edilir və onların hər birində uşaq dünyasının elementləri özünü ifadə edir. Bu mənə görə müəllifin həm ana, həm də müəllimə olmasından irəli gələn səbəblərdən biridir. Yəni, o, bir xanım kimi uşaq dünyasına kifayət qədər bələddir. Deməli həm həyat təcrübəsi, həm də istedadı Firəngiz xanıma balacaların dünyasına səyahət etmək imkanı veribdir.




**Bu kitabdakı "Karantin", "Muradın sevinci" hekayələri, "Fəridin sehirli kitabı" nağılı mənim fikrimcə uşaqlara söylənilən maraqlı hekayə və nağıllar sırasında yer tuta bilər. Ona görə də mən Firəngiz xanıma yaradıcılıq uğurları diləməklə yanaşı, həm də ona çalışdığı bütün sahələrdə təkcə balacaların deyil, böyüklərin də dünyasına üz tutmağı arzu edirəm.**

**Əbülfət MƏDƏTOĞLU**

# Sovetlərin soyad terroru



***Zaur Əliyev,***
***dosent***

**Azərbaycanın Rusiya tərəfindən işğalı son üç yüz ilə yaxın dövrdə iki dəfə baş vermişdir. Bir Rusiya imperiyası dövründə, bir də siyasi sistemi dəyişsə də mahiyyətində imperiya maraqları qalan Sovetlər dövründə. Bu illər ərzində Azərbaycanın çox sahələrinə və milli dəyərlərinə ağır zərbələr dəyib. Böyük nəsillər, genetik koda malik olan insanlar, tarixi və milli mədəni abidələrimiz, hətta dini dəyərlərimiz Rusiya tərəfindən məhv edilibdir. Bu işğalın Azərbaycana vurduğu ən böyük zərbə xalqımızın genetik kodunun və nəsil şəcərəsini bildirən soyadlara dəymişdir.**

Azərbaycanda soyadların sistemli tətbiqinə XIX əsrdən etibarən başlanılmış fikrini elmdə və mediada təbliğ edib Rusiyaya haqq qazandıran müəlliflər isə bilərəkdən bu işğala haqq qazandırmağa çalışıblar. Azərbaycanda İslama qədər dövrdə Alpər, Buğaday, Burla, Beyrək, Banıçiçək, Tural, Selcan, Domrul, Tengiz kimi tarix dastanlarda və folklorda adlarımızın olduğunu görə bilirik. İslam dini qəbul edildikdən sonra yeni doğulanlara Allahqulu, İmamqulu, Həsənqulu, Hüseynqulu, Əliverdi, Allahverdi, Tanrıverdi... kimi adlar qoyuldu. Tədqiqatçı Ələkbər Qasımov haqlı olaraq yazır ki, " Əliəsgər, Əliövsət, Əliağa, Əlimərdan, Əliisa, Fatimə kimi adlarda i saitləri ixtisar edildi. Bu addımı doğrultmaq üçünsə Azərbaycan dilinin qramatikasına qondarma qayda əlavə olundu ki, mürəkkəb şəxs adlarının yazılışında birinci ad saitlə bitib ikinci saitlə başlayırsa bu zaman saitlərdən biri düşür, yəni yazılmır."

Bu cürə islahatlar sayəsində soyadlarımız da məcbur dəyişilməyə məruz qaldı. Sovetin bu familiyalandırma işində məqsədi çox sadə idi: əhalinin siyahıyaalınması. Beləliklə, bu proses zamanı babalarımızın adından -ov, -yev vasitəsilə qondarma soyadlar düzəltdilər. Bu zaman isə soyu-kökü, nəsəbi, nəsli-tayfanı və yaxud el-obanı bildirən soyadlar yox edildi.

Ölkəmizi işğal edən bolşevik siyasətinin bir məqsədi var idi -Azərbaycan xalqını kökündən qoparıb yenidən əkmək, sovet xalqı yaratmaq. Bu zaman isə genetik kodları olan nəsilləri və insanları soy kökünü yox edən bolşeviklər tarixdən miras qalan nəsillərin əsas xətti olan kişiləri qulaq, bəy, xan, qolçomaq adı ilə bir dəfə öldürdülər, sonra isə 1930-cu illərdən başlayaraq repressiyalar vasitəsilə məhv etdilər. Böyük nəsillər (Atabəylər, Səfəvilər, Cavanşirlər, Qaraqoyunlu, Ağqoyunlu, Talışinski, Əfşarlar, Qacarlar və sairə ) davamçısı olan şəxslər öldürüləndən sonra yerdə qalanları ov və yev soyadı verərək onların nəslini cılızlaşdırıb yeni kimlik yaratmağa çalışan bolşeviklər bu coğrafiyanın qədim tarixini silməyə cəhd etdilər.

Şəxsən bizim soyadımız Qarabağın xan nəslinə aid Cavanşirlərdən gəlmədir. Lakin babam Seyid Əli Behbud Cavanşiri 1921-ci ildə Şuşadan sürgün edib Ağdama gətirəndə soyadımızı onun adı ilə Əliyev adlandırmaq üçün qeydiyyata aldılar.

Onun qardaşlarını və əmisioğullarını isə Behbudov və Ağamirov kimi qeydiyyata aldılar. Beləliklə bizim soy ağacımızı üç yerə böldülər. Bu təkcə bizim nəslin deyil, digər regionlarda böyük nəsillərin də başına gəldi.

Bolşeviklər nəsil adlarının əvəzlənməsi üçün də təbliğat aparırdılar. Böyük nəsillərin sağ qalan davamçıları içərisində Kombayn, Traktor, Oktyabr, Fevral, Sovet kimi digər adlara da rast gəlinirdi.

Hətta Sovetlər daha irəli gedərək bizim babalarımızın İslama aid olan adlarına ov və yev əlavəsi artıraraq bizi ərəbcə və farsca olan tarixə bağlamağa cəhd etdilər. Soyadlara zadə sonluğu da farslardan gəlmədir.

Şəxsən bizim soyadımız olan Əliyevi ərəbə bağlayıblar. Halbuki bizim nəslin şəcərəsini araşdıranda ən azı 7 nəslə gedib çıxıram hamısı türk oğlu türkdür, mənim soyadımın ərəb mənşəli Əliyev olmasının günahı isə sovetlərin təbliğat maşınının nəticəsidir.

Hesab edirəm ki, dövlət bu işdə ciddi siyasət yeritməlidir. Vətəndaşlarımızın soyadları nəsil şəcərələri ilə qeydiyyata alınmalıdır. Li, Lu, Lü ilə yanaşı olaraq oğlu, qızı da mütləq önəmli olmalıdır. Regionla bağlı soyadlara da izn verilməlidir. Şəkili, Qarabağlı, İrəvanlı , Talışxanlı, Naxçıvani, Bakıxanlı və sairə də olmalıdır..

**Bizim soy kökümüzə qayıdış soyadların bərpası ilə mümkün olacaq. Bu zaman biz buranın ən qədim sakinləri olmağımızı göstərməklə yanaşı soyumuza, torpaqlarımıza sahiblənə bilərik...**

## Evini təmizləyərkən xəzinə tapdı



**İngiltərənin Northumberland şəhərində yaşayan 70 yaşlı qadın evini təmizləyərkən tapdığı və illər əvvəl atdığı nəhəng tək qaş üzüyün dəyərini öyrənmək üçün zərgərə aparıb. Üzüyü araşdıran mütəxəssislər qadının öz evində sərvətlə yaşadığını aşkar ediblər.**

İllərdir bit bazarlarında alış-veriş edən qadının üzüyün dəyərindən xəbəri olmadığı və qiymətli daşı sadəcə qutuda saxladığını deyib. Üzüyün qaşının 34 karatlıq əsl brilyant olduğu üzə çıxıb. Hərrac evinin sahibi Mark Leyn daşı görəndə gözlərinə inana bilmədiklərini və qadının üzüyü öz toy üzüyü və digər zinət əşyaları ilə birlikdə qutuda saxladığını söylədi. Üzüyü əvvəlcə Londonda, sonra isə Belçikanın Antverpen şəhərində zərgərlik mütəxəssisləri yoxlayıb və onun 34 karatlıq brilyant olduğu təsdiqlənib. Üzük bir ay sonra Londonda keçiriləcək hərracda satışa çıxarılacaq. Mütəxəssislər brilyant üzüyün ilkin dəyərinin 2 milyon funt-sterling olduğunu açıqlayıb.

## Acun Ilıcalı İngiltərədə klub alıb




**İngiltərənin "Hull City" futbol klubu təhvil-təslim işlərinin getdiyini açıqlayıb. Adalet.az xəbər verir ki, açıqlamada klubun yeni sahibinin adı bildirilməsə də, yerli KİV bunun türkiyəli şoumen Acun Ilıcalı olduğunu bildirib.**

Onun futbol klubuna görə 35.4 milyon avro ödədiyi qeyd olunub. "Championship"də mübarizə aparan klubun bu mövsümün sonunda Premyer Liqaya vəsiqə qazanması halında Acunun daha 20 milyon ödəyəcəyi vurğulanıb.

**AYXAN**

## Köhnə avtobuslar nə vaxt yenilənəcək?



**Bu gün Bakı şəhərində köhnə avtobusların fəaliyyət göstərdiyi çoxlu sayda marşrutlar var. Həmin marşrutlar da təbii ki, sərnişinlərin rahatlığını təmin etmir. Əgər fikirləşsək ki, artıq payız fəslidir və bir aydan sonra qış gələcək, o avtobuslarda mənzil başına getmək daha çətin olacaq. Çünki köhnə avtobuslarda sərnişinlər qışda soyuqdan donur, yayda isə istidən birtəhər olurlar.**

Hələ biz onu demirik ki, belə nasaz avtobuslar xəttə çıxarkən tez-tez xarab olur və sərnişinlər yarı yolda qalırlar. Hava da soyuq olanda onlar yarı yolda avtobus gözləməkdən birtəhər olurlar. Sözümüzün canı ondan ibarətdir ki, Bakı Nəqliyyat Agentliyi sərnişindaşıma şirkətləri qarşısında konkret tələblər qoymalı, köhnə və istismar müddəti başa çatmış avtobusların məxsus olduğu sahibkarlarla yeni müqavilə bağlamamalıdı. Bu müqavilə o vaxt bağlanmalıdı ki, həmin marşrutlara yeni avtobuslar gətirilsin və onlar xəttə buraxılsın. Aydındır ki, hər bir sərnişin nəqliyyat vasitəsində olarkən 30 qəpik pul ödəyir və mənzil başına rahat getmək istəyir.

**Emil FAİQOĞLU**

# Könül rahatlığımın ünvanları

## Səfər təəssüratımdan notlar

**Hər dəfə xəyallarımı, istəklərimi və hətta içimdəki duyğuları bölüşmək istəyəndə, Bakıdan, evimdən, işimdən baş götürüb harasa getmək istəyirəm. Bu nə dəlilik deyil, nə də adamlardan, doğmalardan bezmək. Sadəcə olaraq bu tək qalmaq və bir də o təkliyə dəyər verənlərin nəfəsi çatan məsafədə dayanmaq istəyimdi mənim. Ona görə də içim yüklənəndə, ruhum sözümə baxmayanda yavaş-yavaş yır-yığış edirəm. Bir gün, beş gün, on gün çəkir bəzən bu yır-yığış. Bu da səbəbsiz deyil. Çünki bugünün yır-yığışı dərzinin köçməyinə bənzəmir. Yəqin bilirsiz də dərzi necə köçür. Bilməyənlərə xatırladım:**

- Dərziyə, köç! - deyəndə iynəsini yaxasına taxır, qayçısını da qoyur cibinə.

Bax, budur onun köçü. Hara getsə, işini, çörəyini özü ilə aparır. Və ona görə də dərzinin köçü çox asan və sadədir. Bu gün isə mənim və bütün mənim günümdə olanların köçü sözün həqiqi mənasında ağırdan ağırdı. Bu ağırlıq da maddiyyat ilə bağlıdı. Adamlar evindən çıxanda əliylə cibini tutub sıxır, necə gedib necə qayıdacağını düşünmək ona əzab versə də, amma məcburdu cibini sıxmağa. Onun gediş-gəlişi həmin o cibdən asılıdı... Bax, bu mənada mən də səfərə hazırlaşanda, o hisləri yaşayıram. Dostların, doğmaların əl uzatması, yardım göstərməsi nə qədər xoş olsa da, bir yük, bir daş kimi ağırlıq gətirir adama. Ona görə də ürək ağrıdan, sızıltıdan qurtula bilmir və beləcə başlayır yolçuluq...

Bəli, mənim sevinə-sevinə, necə deyərlər, ürəyim atlana-atlana getdiyim iki ünvan var, iki bölgə var. Onlardan biri Naxçıvandır, biri də Trabzon. Hər ikisində özümü o qədər rahat hiss edirəm ki, sanki yenidən doğulmuşam, yenidən gəlmişəm dünyaya. Baş verənlərdən, olmuşlardan xəbərsizəm. Bax, bu hisləri məndə yaradan və yaratdığını da yaşadan hər iki ünvandakı dostlarımdı. Təbii ki, coğrafi baxımdan da bu ünvanlar Bakıdan çox fərqlənir. Hər ikisindəki səliqə-səhman, təmizlik, gözəllik, hətta havanın, suyun özünün dadı, tamı belə fərqlidi. Bax, bu fərq orada yaşayan adamların səmimiyyətində də özünü göstərir. Halallıq adamın üzünə gülür, könlünü oxşayır. Bu da şəxsən mənim həm ruhuma, həm əsəblərimə, həm ürəyimə məlhəm olur. Və baxıb görürəm ki, rahatlığım məni qayğılardan xeyli uzaqlaşdırır, dilimdəki, qələmimdəki kədər bir az perikib...

Bunu ona görə xüsusi vurğulayıram ki, oxucu mənim ovqatıma köklənə bilsin. Ona bəlli olsun ki, mənim özümdən, Bakıdan, doğmalarımdan qaçmaq istəyimin kökündə nə dayanır, səbəb nədir? Axı səbəbsiz heç



nə olmur. Məhz bu mənada mən hətta Naxçıvanla, Trabzonla, hətta telefon danışıqlarımda belə bir rahatlıq yaşayıram. Deməli, mühit, çevrə və həmin o iki halın içərisindəki səmimiyyət insan üçün çox önəmlidir. Bu mənim illərcə sınadığım, yaşadığım gerçəklikdən çıxartdığım nəticədir. Və...

Bəli, yenə yolum Trabzonadır... Yenə ürəyimi götürüb gedirəm... Yenə həkimim, ürək doktorum Mustafa Hocanın qapısını döyəcəm. Artıq internet vasitəsilə yazışmışıq da. Bilirəm ki, gözləyir məni. Ən çox gözləyən isə can dostum, yer üzündə İNSAN-MƏLƏK adlandırdığım Əhməd bəy gözləyir. COVİD-19-un günahından artıq 3 ilə yaxındır ki, nə Mustafa Hocanı, nə də Əhmədi ziyarət edə bilməmişəm. Ona görə də səbirsizləndim və düşdüm yolun ağına...

Həmişə Trabzona Qırmızı Körpüdən, Batumdan keçib getmişəm. Bu dəfə isə yenə COVİD-19-un günahından yolumu, marşrutumu dəyişməli olmuşam... Naxçıvana uçacam. Ordan keçib gedəcəm üzü Trabzona. Bir neçə gün öncə şair qardaşım Asim Yadigara zəng etdim. Naxçıvana gələcəyimi bildirdim. Təbii ki, hər zaman ürək açıqlığı ilə "Gəl, qardaş, gəl!" deyən Asim Yadigar bu dəfə də həmin ovqatla "Gəl!" dedi. Ondan xahiş etdim ki, Naxçıvandan Türkiyəyə gedən avtobus üçün mənə öncədən yer sifariş etsin. Narahat olma, - dedi. Sən gəl, biz səni yola salarıq, - söylədi. Və...

Bu da sentyabr ayının 28-i. Günorta saatlarında Bakı-Naxçıvan təyyarəsi ilə yola düşdüm. Göyün yeddinci qatına yaxın bir məsafədə olanda ağlıma ilk gələn bir məqam oldu. Bunu yazmasam olmaz. Düşündüm ki, görəsən, hamının dostları mənim dostlarım kimidi, yoxsa, mənim dostlarım SEÇİLMİŞLƏRDƏNDİR?! Çünki mən onlardan hər zaman layiq olduqlarımdan qat-qat artıq diqqət və sevgi, sayqı görmüşəm. Bu məni şərəfləndirdiyi qədər də həm də daha diqqətli olmağa kökləyib. Elə göyün yeddinci qatına yaxın məqamda da Allahımdan dilədiyim də Ürəyimdəkinə, dostlarıma olan duyğularımın son anıma qədər məni tərk etməməsi istəyi oldu. Təyyarə Naxçıvan hava limanına enəndə təbii ki, uçuşlardan o qədər də xoşlanmayan bir sərnişin kimi mən dərindən nəfəs alıb özümü dost görüşünə hazırladım. Hava limanında Asim Yadigar gözləyirdi məni. Məni qarşılayan bu böyük insanın, böyük şairin, böyük dostun üz-gözündəki təbəssüm, açılan qolları mənim üçün çox şey demək idi. Onu yazmaq, onu etiraf etmək bəlkə də yersiz görünə bilər. Amma həqiqət nə vaxtsa dilə gətirilməlidi. Mən də bu həqiqəti indi yazıram...

Dost görüşünün bayram olduğunu hamı deyir, hamı yazır. Mən də deyib və yazıram. Onu da əlavə edirəm ki, bu təkcə bayram deyil, həm də ölçüsüz, davamlı bir yaşamdı. Çünki bayram bir gün, beş gün olur. Amma dost görüşü hər gün xatırlamalarla, telefon zəngləri ilə, yazı-pozu ilə, şəkillərlə, bir sözlə, müxtəlif səbəblərlə uzanır, ömrün böyük bir hissəsinə çevrilir. Ona görə də Asim qardaşımla görüşüb Naxçıvan Yazıçılar Birliyinin binasına yola düşəndə onun dediyi ilk kəlmə mənə tam səmimi deyim ki, yüksək sayqının ifadəsi idi. Asim söylədi ki, Hüseyn də, Əbülfəz də səni qarşılamağa gələcəkdi. Sadəcə olaraq Əbülfəzin səhhətində, Hüseynin isə işində olan səbəblər buna imkan vermədi. Amma bir azdan hamımız yığışacağıq bir yerə. Sənin bilet məsələn də danışılıb, həll edilib. Artıq bizim bircə işimiz var. O da yol çantanı oteldəki otağına qoymaq və sonra...

**Bəli, sonrasını mən zaman-zaman Naxçıvanda yaşadığımı artıq onu nə Asim demədi, nə də mən deməsini istəmədim. Çünki bu ikimizə də bəlli olan mövzu idi. Öncə Naxçıvan Yazıçılar Birliyinə baş çəkib, Asimin iş otağında bir Naxçıvan çayı içdik. Elə bu binada yerləşən Naxçıvan Ağsaqqallar Şurasına, daha doğrusu, şair dostum, ağsaqqal qardaşım Hacı Firudinə baş çəkdim. O da bu gözlənilməz səfərdən çox məmnun oldu, hal-əhval tutdu. Və qayıtdıq artıq işini başa vurub Yazıçılar Birliyinin həyətində bizi gözləyən yazıçı-publisist, məni həmişə "Mədətoğlu" deyə salamlayan qardaşım Hüseyn Əsgərovun yanına...**

**(Ardı var)**

**Əbülfət MƏDƏTOĞLU**

## İsveçrədə yaşayan Azərbaycanlı model yeni fotoları ilə şok etdi



**Hal-hazırda İsveçdə təhsil alan və bu ilin yanvarında nişanlanan qızının yanında yaşayan 49 yaşlı azərbaycanlı model Validə Abbasova yeni şəkillər ilə izləyicilərini sevindirib.**

Adalet.az xəbər verir ki, hər zaman açıq-saçıq geyimi və həyat tərzi ilə diqqət mərkəzində olan Validə bu dəfə də göz qamaşdırıb. İllərə meydan oxuyan, bədənini nümayiş etdirməyi sevən "Miss millenium" gözəli bu dəfə olduqca seksual fotolar paylaşıb.

Müxtəlif nahiyələrinin görüntülərini paylaşan V.Abbasovanın fotoları müzakirələrə səbəb olub.

**Əntiqə**

Azərbaycan Tibb Universiteti tərəfindən Mustafa Gurlek Atıfın adına 21 iyun 2012-ci tarixdə verilmiş BC-1 seriyalı, 020529 saylı diplom itdiyi üçün etibarsız sayılır.

***

Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylı qərarı ilə Şirinov Əliağa Əlibaba oğlunun adına verilmiş A № - 458425 nömrəli torpaq sahəsinin plan-ölçü sənədləri itdiyi üçün etibarsız hesab edilir.

Hüseyn Əsgərov, Muxtar Qasımzadə, İbrahim Yusifoğlu, Məmməd Tahir, Zəkullah Bayramlı və Əbülfət Mədətoğlu dostları **Asim Yadigara** əzizi professor

**Cəlal Qasımovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 138
Çapa imzalanmışdır:
01.11.2021